Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin "Korporativ İdarəetmənin Təşkili və Kordinasiya Mərkəzi" Publik Hüquqi Şəxsin 2025-ci ilin yekunu üzrə maliyyə hesabatları və Müstəqil Auditorun hesabatı

Bakı-2026-cı il

MÜNDƏRİCAT

"Korporativ İdarəetmənin Təşkili və Kordinasiya Mərkəzi"nin 2025-ci ilin yekunu üzrə maliyyə hesabatlarının hazırlanması və təsdiq edilməsi ilə əlaqədar rəhbərliyin məsuliyyətinə dair hesabatı .....

Auditorun hesabatı.....

Mərkəzin maliyyə vəziyyəti haqqında hesabatı .....

Mərkəzin mənfəət və zərər haqqında hesabatı .....

Mərkəzin kapital dəyişiklər haqqında hesabatı .....

Mərkəzin pul vəsaitlərinin hərəkəti haqqında hesabatı.....

Auditorun Mərkəzin maliyyə hesabatlarına dair şərh və qeydləri .....

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin "Korporativ İdarəetmənin Təşkili və Kordinasiya Mərkəzi" Publik Hüquqi Şəxsin 2025-ci ilin yekunu üzrə maliyyə hesabatlarının hazırlanması və təsdiq edilməsi üzrə rəhbərliyin məsuliyyətinə dair hesabatı

"Korporativ İdarəetmənin Təşkili və Kordinasiya Mərkəzi" Publik Hüquqi Şəxsin rəhbərliyi, Mərkəzin 2025-ci ilin yekunu üzrə maliyyə vəziyyəti haqqında, mənfəət və zərər haqqında, kapitalda dəyişikliklər haqqında, habelə pul vəsaitlərinin hərəkətinə dair hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlaına (BHMS) müvafiq olaraq hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik aşağıdakılara cavabdehdir:

-BHMS-na uyğun mühasibat uçotu prinsiplərinin və qaydalarının seçilməklə, mütəmadi olaraq tətbiq edilməsinə;

-Məlumatların, o cümlədən mühasibat uçotu qaydalarının müvafiq, mötəbər, müqayisəli və anlaşıla biləcək formada təqdimatına;

-Mövcud qanunvericiliyə uyğunluğun bəyan edilməsi və əgər əhəmiyyətli kənarlaşmalar olarsa, bu hallarının maliyyə hesabatlarında açıqlanmasına və izah edilməsinə;

-Mərkəzin fasiləsizlik iş prinsipinə əsasən fəaliyyətini davam etdirə bilməsi imkanlarının qiymətləndirilməsinə və malyyə hesabatlarının daimilik prinsipi əsasında hazırlanmasına;

Həmçinin Mərkəzin rəhbərliyi aşağıdakılara görə məsuliyyət daşıyır:

"Korporativ İdarəetmənin Təşkili və Kordinasiya Mərkəzi"in daxilində sağlam və effektiv daxili nəzarət sisteminin yaradılmasına, tətbiqinə və saxlanılmasına;

- Mərkəzin əməliyyatlarının açıqlanmasına və izah edilməsinə, habelə onun maliyyə hesabatlarının istənilən vaxt dəqiqliklə açıqlanması üçün yetərli olan və PHŞ-in maliyyə hesabatlarının MHBS-na uyğun gəldiyini təmin edə biləcək müvafiq mühasibat uçotu qeydlərinin aparılmasına;

-Azərbaycan Respublikasının qanunvericiliyinə və mühasibat uçotu qaydalarına müvafiq olaraq məcburi mühasibat uçotu qeydlərinin aparılmasına;

- Mərkəzin aktivlərinin mühafizə olunması üçün mümkün tədbirlər görülməsinə;

-Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınmasına;

Mərkəzin 2025-ci maliyyə ilinin yekunu üzrə maliyyə hesabatları rəhbərlik tərəfindən təsdiq olunmuşdur.

"Korporativ İdarəetmənin Təşkili və Kordinasiya Mərkəzi" Publik Hüquqi Şəxsin İdarə Heyətinin sədri **Toğrul İsalı**

Maliyyə və təminat şöbəsinin müdiri **Sərxan Etibarlı**

14 aprel 2026-ci il

Bakı, Azərbaycan Respublikası

"Korporativ İdarəetmənin Təşkili və Kordinasiya Mərkəzi"
Publik Hüquqi Şəxsin İdarə Heyətinin sədrinə

Azərbaycan Respublikası Auditorlar Palatasının
üzvü-Müstəqil auditorun hesabatı

R ə y № il3ICDLMQM **14 aprel 2026-cıil**

Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən 19 sentyabr 2023-cü il tarixdə verilmiş SA/540 nömrəli İcazəyə əsasən "Korporativ İdarəetmənin Təşkili və Kordinasiya Mərkəzi" Publik Hüquqi Şəxsin İdarə Heyətinin sədri Toğrul Fəxrəddin oğlu İsalı arasında 06 aprel 2026-cı il tarixdə bağlanmış M-43207 saylı müqaviləyə uyğun olaraq, Mərkəzin 2025-ci ilin yekunu üzrə maliyyə vəziyyəti, mənfəət və ya zərər, digər məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarının auditini apardıq.

Fikrimizcə, Korporativ İdarəetmənin Təşkili və Kordinasiya Mərkəzi 2025-ci ilin yekunu üzrə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən dövr üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatları bütün əhəmiyyətli aspektləri baxımından, mərkəz tərəfindən Azərbaycan Respublikasının "Mühasibat uçotu haqqında" Qanununa Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq obyektiv şəkildə təqdim edilir.

Rəy üçün əsaslar

Hazırki auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir.

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Mərkəzdən asılı deyilik və digər etik öhdəliklərimizi bu tələblərə uyğun olaraq yerinə yetirmişik.

Hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Mərkəzin maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə, habelə rəhbərliyin vəzifə səlahiyyətlərinin icrası zamanı şəffaflığın təmin olunmasına və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmamış maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Mərkəzin fasiləsiz fəaliyyət göstərməsinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun normativ-hüquqi aktların tələblərinə uyğun aparılmasına görə məsuliyyət daşıyır.

Eyni zamanda Mərkəzin idarə olunmasına cavabdeh olan səlahiyyətli şəxslər maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Məqsədimiz əlavə edilmiş maliyyə hesabatlarında uyğunsuzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığma dair kafi əminlik əldə etmək və rəyimizi daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o

zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır.

Təhriflər uyğunsuzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi mən audit yoxlaması aparılan zaman peşəkar mühakimə tətbiq edir və peşəkar şəffaflıq nümayiş etdirirəm.

Mən həmçinin:

- Maliyyə hesabatlarında uyğunsuzluq (təhrif olunma) və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqiliyini qiymətləndiririk.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Mərkəzin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarmdakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik.
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Mərkəzin rəhbərliyinə digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Audit 14 aprel 2026-cı il tarixdə müvafiq qaydada məlumat və verilmiş rəy ilə rəsmiləşdirilmiş və hazırlanmış audit rəyinin bir nüsxəsi Mərkəzin rəhbərliyinə təqdim edilmiş, ikinci nüsxəsi isə Müstəqil auditorda saxlanılmışdır.

Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü-Müstəqil auditor: **Yaqub Verdiyev**

14 aprel 2026-cı il

"Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi" PHŞ
2025-ci maliyyə ilinin yekunu üzrə Maliyyə vəziyyəti haqqında hesabatı

Bölmə, maddə, Nəsi	Bölmə və maddələrin adı	Uçot siyasəti və izahlı qeydlərin nömrəsi	2025-ci il üzrə	2024-cü il üzrə
1	*2*	*3*		*5*
	Aktivlər			
1	**Cari aktivlər**			
	Ehtiyatlar		39 472,11	27 125,69
	Qısamüddətli debitor borcları		806 966,02	697 699,34
	Pul vəsaitləri və onların ekvivalentləri		2 451 950,31	2 578 907,75
	Sair qısamüddətli maliyyə aktivləri		774,03	121 553,79
	Sair qısamüddətli aktivləri		15 036,66	1 453,95
	Cəmi cari aktivlər		**3 314 199,13**	**3 426 740,52**
	Uzunmüddətli aktivlər			
	Qeyri-maddi aktivlər		4 320,00	4 800,00
	Torpaq, tikili və avadanlıqlar		681 873,32	694 086,81
	Təyinatı üzrə istisimara hazır olan torpaq, tikili və avadanlıqlar		444 228,85	14 950,75
	İnvestisiya mülkiyyəti			
	Uzunmüddətli debitor borcları			
	Gələcək dövrün xərcləri			
	Sair uzunmüddətli maliyyə aktivləri		943 300,00	356 300,00
	Cəmi uzunmüddətli aktivlər		**2 073 722,17**	**1 070 137,56**
	Cəmi aktivlər		**5 387 921,30**	**4 496 878,08**
	Öhdəliklər və kapital			
	Cari öhdəliklər			
	Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər		-	-
	Qısamüddətli qiymətləndirilmiş öhdəliklər		103 511,56	106 428,71
	Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər		229 915,86	172 720,08
	Qısamüddətli kreditor borcları		4 483,99	171,76
	Gələcək hesabat dövrünün gəlirləri		36 024,12	18 818,51
	Məqsədli maliyyələşmələr və daxilolmalar		2 375 085,92	2 523 000,00
	Cəmi qısamüddətli öhdəliklər		**2 749 021,45**	**2 821 139,06**
	Uzunmüddətli öhdəliklər			
	Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər		-	-
	Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər		-	-
	Təxirə salınmış vergi öhtəlikləri		-	-
	Uzunmüddətli kreditor borcları		-	-
	Sair uzunmüddətli öhdəliklər		-	-
	Cəmi Uzunmüddətli öhdəliklər		-	-
	Xalis aktivlər və kapital			
	Nizamnamə kapitalı		708 232,00	708 232,00
	Emissiya gəlirləri		-	-
	Geri alınmış kapital (səhmlər)		-	-
	Kapital ehtiyyatları		-	-
	Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)		1 930 667,81	967 507,02
	Cəmi xalis aktivlər və kapital		**2 638 899,81**	**1 675 739,02**
	Cəmi öhdəliklər və kapital		**5 387 921,26**	**4 496 878,08**

İdarə heyətinin sədri **Toğrul İsalı**

Maliyyə və təminat şöbəsinin müdiri **Etibalı Sərxan**

"Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi" PHŞ 2025-ci ilin yekunu üzrə Məcmu mənfəət və zərər haqqında hesabatı				
Bölmənin, maddənin nömrəsi		**Qeyd**	**2025-ci il üzrə**	**2024-cü il üzrə**
	Gəlirlər			
	Əsas əməliyyat gəlirləri		3 161 315,36	2 606 491,01
	Büdcədən maliyyələşmə		1 312 700,00	1 684 700,00
	Faiz gəlirləri, royalti və dvidentlər		140 959,84	107 101,58
	Sair əməliyyat gəlirləri		-	-
	Cəmi əməliyyat gəlirləri		**4 614 975,20**	**4 398 292,59**
	Vergidən azad olunan cəmi gəlirlər		**1 312 700,00**	**1 684 700,00**
	Vergiyə cəlb olunan cəmi gəlirlər		**3 302 275,20**	**2 713 592,59**
	Xərclər			
	Material xərcləri			
	Kommersiya xərcləri			
	Əməkhaqqı xərcləri və sosial ayırmalar		3 188 836,28	2 529 334,64
	Köhnəlmə və amortizasiya xərcləri			
	Maliyyə xərcləri			
	Sair əməliyyat xərcləri		241 172,26	789 566,87
	Cəmi əməliyyat xərcləri		**3 430 008,54**	**3 318 901,51**
	Vergidən azad olunan fəaliyyətlə əlaqədar cəmi xərclər			
	Fəaliyyətlə bağlı vergiyə cəlb olunan cəmi xərclər			
	Əməliyyat mənfəəti (Zərərlər)		1 184 966,66	1 079 391,08
	Ümumi mənfəət (Zərər)		1 184 966,66	1 079 391,08
	Mənfəət vergisi		237 110,53	149 792,05
	Hesabat dövrünün sonuna maliyyə nəticələri		**947 856,13**	**929 599,03**

İdarə heyətinin sədri **Toğrul İsalı**

Maliyyə və təminat şöbəsinin müdiri **Etibalı Sərxan**

"Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi" PHŞ
2025-ci ilin yekunu üzrə pul vəsaitinin haqqında hesabatı

	Qeyd	2025-ci ilin yekunu üzrə	2024-cü ilin yekunu üzrə
Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti			
Müştərilərdən daxilolmalar		3 705 507,51	2 623 581,43
Mal və xidmətlərə görə təchizatçılara ödənişlər		721 697,14	783 235,07
İşçilərə və onların adından pul vəsaitlərinin ödənişləri		3 059 256,26	2 585 885,68
Vergi ödənişləri		828 992,32	393 717,61
Digər əməliyyat fəaliyyəti ilə bağlı pul ödənişləri		-	-
Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin artımı (azalması)		**(904 438,21)**	**(1 139 256,93)**
İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti			
Torpaq, tikinti və avadanlıqların, qeyri maddi aktivlərin aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərin xaricolmaları		-	15 797,34
Digər tərəfə verilmiş borcların qaytarılmasından pul vəsaitlərinin daxilolmaları		1 983 000,00	1 350 000,00
Digər tərəfə verilmiş borcların qaytarılmasından pul vəsaitlərinin xaricolmaları		2 570 000,00	1 359 500,00
Kreditlərin qaytarılmasından yaranan pul vəsaitlərinin mədaxili		-	-
Dividendlər və gəlirin digər oxşar növləri şəklində pul vəsaitlərinin daxilolmaları		-	-
Faiz daxilolmaları		140 959,84	107 101,58
Cəmi investisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti		**(446 040,16)**	**81 804,24**
Maliyyeləşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti			
Nizamnamə kapitalına və ehtiyat fondlarına ayırmalar üzrə daxilolmalar		-	-
Qiymətli kağızların buraxılışından daxilolmalar		-	-
Məqsədli maliyyələşmə formasında pul vəsaitlərinin daxilolmaları		18 708 462,83	2 345 488,22
Məqsədli maliyyələşmə şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları		121 000,00	470 000,00
Maliyyələşmə üzrə fəaliyyətlər ilə əlaqədar görə pul vəsaitlərinin xaricolmaları		17 363 941,91	3 691 510,75
Borc şəkilində alınmış vəsaitlərə görə geri qaytarılmalardan məxaric		-	-
Cəmi maliyyeləşdirmə fəaliyyətdən yaranan pul vəsaitlərinin hərəkəti		**1 223 520,92**	**(1 816 022,53)**
Cəmi mədaxil olunan pul vəsaiti		***24 537 930,18***	***6 426 171,23***
Cəmi məxaric olunan pul vəsaiti		***24 664 887,63***	***9 299 646,45***
Dövrün əvvəlinə olan pul qalığı		**2 578 907,75**	**5 452 382,97**
Dövrün sonuna olan qalıq		**2 451 950,30**	**2 578 907,75**
Pul vəsaitlərinin artması (azalması)		**126 957,45**	**2 873 475,22**

İdarə heyətinin sədri **Toğrul İsalı**

Maliyyə və təminat şöbəsinin müdiri **Etibalı Sərxan**

"Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi" PHŞ

2025-ci maliyyə ilinin yekunu üzrə Kapitalda dəyişikliklərhaqqında hesabatı

	Qeyd	Nizamnamə Kapitalı	Kapital ehtiyatları	Bölüşdürül-məmiş mənfəət	Cəmi
1 yanvar 2024-cü il tarixə qalıq		**708 232,00**	**-**	**66 185,94**	**774 417,94**
Daxil olub		-	-	901 321,08	**901 321,08**
İstifadə olunub					-
31 dekabr 2024-cü il tarixə qalıq		**708 232,00**	**-**	**967 507,02**	**1 675 739,02**
1 yanvar 2025-ci il tarixə qalıq		**708 232,00**	**-**	**967 507,02**	**1 675 739,02**
Daxil olub		-	-	1 027 425,80	**1 027 425,80**
İstifadə olunub		-	-	64 265,00	**64 265,00**
31 dekabr 2025-ci il tarixə qalıq		708 232,00	-	1 930 667,82	2 638 899,82

İdarə heyətinin sədri **Toğrul İsalı**

Maliyyə və təminat şöbəsinin müdiri **Etibalı Sərxan**